**“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə bağlı 2018-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən görülən işlər haqqında məlumat**

| № | Tədbirin adı | Qiymətləndirmə indikatorları | İcra / Tövsiyə | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|---|
| **4.1. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi** | | | | |
| 4.1.1. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi | Prioritetin müəyyən edilmə forması və dəstəklənən layihələrin sayı | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |
| 2018-ci ildə Şura tərəfindən elan edilmiş I qrant müsabiqəsi çərçivəsində “Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair təşəbbüslər” istiqaməti üzrə qeyri-hökumət təşkilatları tərəfindən layihə təklifləri qəbul edilmişdir. Müsabiqə nəticələri ilə bağlı Şuranın qərarına əsasən qeyd olunan istiqamət üzrə 11 qeyri-hökumət təşkilatı maliyyələşdirilmişdir. Həmin qeyri-hökumət təşkilatının layihələrinin icrası üçün Şura tərəfindən 79 000 (yetmiş doqquz min) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 44 nəfər cəlb olunmşdur. Bakı və Lənkəran şəhərlərində, İsmayıllı, Göyçay, Masallı, Astara, Lerik, Cəlilabad, Salyan, Neftçala və Xaçmaz rayonlarında ümumilikdə 7 təlim, 13 seminar və 5 dəyirmi masa keçirilmiş, o cümlədən 7 adda buklet, 1 adda bülleten, plakatlar və digər nəşr məhsulları çap olunmuş, 1 saytda (www.istiqlal.az) Açıq Hökumət sahəsində aparılan islahatlarla bağlı xüsusi bölmə yaradılmış və 1 adda sosial çarx hazırlanmışdır. | | | | |

<table>
<tr><td>4.2.3.</td><td>İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi</td><td>İctimai nəzarət mexanizmlərinin tətbiqi, qaynar xətt vasitəsilə qəbul edilmiş müraciətlərin sayı və həyata keçirilmiş maarifləndirmə tədbirləri</td><td>Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası</td><td>2016-2018</td></tr>
<tr><td colspan="5">2018-ci ilin I qrant müsabiqəsi çərçivəsində “İstehlakçıların hüquqlarının qorunması və maarifləndirilməsinə dair təşəbbüslər” istiqaməti üzrə qeyri-hökumət təşkilatları tərəfindən layihə təklifləri qəbul edilmişdir. Müsabiqədə qalib elan olunmuş 6 qeyri-hökumət təşkilatının layihələrinin icrası üçün Şura tərəfindən 41 000 (qırx bir min) manat vəsait ayrılmışdır. Layihələrin icrasına 26 nəfər cəlb olunmuşdur. Bakı, Gəncə və Lənkəran şəhərlərində, Quba, Qusar, Xaçmaz, Cəlilabad, Astara, Yardımlı və Masallı rayonlarında 8-i təlim olmaqla, 26 tədbir keçirilmiş, o cümlədən 2 adda kitabça, 4 adda buklet, informativ plakatlar və digər nəşr məhsulları çap olunmuş, 1 adda video çarx hazırlanmış və turistlər arasında istehlakçıların hüquqlarının təşviqinə həsr olunmuş sosioloji sorğu keçirilmişdir.<br>QHT-lərin təklif və şikayətlərinin qəbulu üçün Şuranın 1672 nömrəli Qaynar xəttinə 2018-ci ildə 17 müraciət daxil olmuşdur. Daxil olan hər bir müraciət araşdırılmış və müvafiq tədbirlər görülmüşdür.</td></tr>
<tr><td colspan="5">5. Maliyyə şəffaflığının təmin edilməsi</td></tr>
<tr><td>5.6.</td><td>Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi</td><td>Satınalmalarla bağlı məlumatların açıqlanması</td><td>Mərkəzi və yerli icra hakimiyyəti orqanları, iqtisadiyyat Nazirliyi, aidiyyəti büdcə təşkilatları</td><td>2016-2018</td></tr>
<tr><td colspan="5">Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının cssn.gov.az internet saytında yaradılmış Tenderlər bölməsində 2018-ci ərzində Şuranın keçirdiyi açıq tender və kotirovkalar barədə elanlar və bildirişlər yerləşdirilmişdir.</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| **11. Fəaliyyət Planının icrasının monitorinqi və nəzarətin təşkili** | | | | |
| 11.5. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi | Dəstəklənmiş layihələrin sayı | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2016-2018 |

Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi məqsədilə qeyri-hökumət təşkilatlarının faəliyyəti Şura tərəfindən dəstəklənmiş, Şuranın təşəbbüsü və təşkilatçılığı ilə yaradılmış Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının fəaliyyəti davam etdirilmişdir.

Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması Azərbaycan Respublikası Hesablama Palatası ilə birgə 05 fevral 2018-ci il tarixdə "Kənar dövlət maliyyə nəzarətini tənzimləyən" yeni qanun layihəsinin müzakirəsini həyata keçirmişdir. Platforma 14 may 2018-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə birgə "Gömrük orqanlarının fəaliyyətində şəffaflıq və hesabatlılıq" və 03 oktyabr 2018-ci il tarixdə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi ilə birgə "Azərbaycanda daşınmaz əmlakın qeydiyyatında şəffaflıq, innovasiyalar və vətəndaş məmnunluğu" mövzusunda ictimai müzakirələr təşkil etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə "Konstitusiya" Araşdırmalar Fondu "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın monitorinqini həyata keçirib. Monitorinq prosesinə Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasına üzv olan ixtisaslaşmış təşkilatlar cəlb olunub. 20 dekabr 2018-ci il tarixdə monitorinq hesabatının təqdimatının keçirilməsi, eyni zamanda azərbaycan və ingilis dillərində dərc edilərək aidiyyəti qurumlara paylanması nəzərdə tutulub. Qeyd edək ki, 2017-ci ildə də Şuranın maliyyə dəstəyilə "Rezonans" Gənclərin İctimai Birliyi tərəfindən "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2-ci istiqamətinin (İnformasiya əldə edilməsinin təmin olunması) monitorinqi həyata keçirilmiş və hesabat hazırlanaraq ictimaiyyətə təqdim edilmişdir.

Fəaliyyət Planının icrasından irəli gələrək, 2018-ci ildə Şura tərəfindən həyata keçirilən qrant müsabiqələri üzrə Açıq hökumətin təşviqi, korrupsiyanın qarşısının alınması, istehlakçıların hüquqlarının qorunması və maarifləndirilməsi mövzuları üzrə QHT-lər tərəfindən həyata keçirilən 17 layihənin icrasına Şura tərəfindən ümumilikdə 120 000 (yüz iyirmi min) manat vəsait ayrılmışdır.